DÖVLƏT VERGİ XİDMƏTİ

# Yükdaşıma fəaliyyəti ilə məşğul olan vergi ödəyicilərinin nəzərinə!

**Vergi Məcəlləsində edilmiş dəyişikliyə əsasən, 01.01.2024-cü il tarixdən etibarən**

- avtomobil nəqliyyatı vasitələri ilə yükdaşıma fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri həmin öhdəliklərini ümumi qaydada, yəni
  - əldə etdikləri gəlirlərdən (ümumi hasilatdan) xərclər çıxılmadan 2 faiz dərəcə ilə sadələşdirilmiş verginin ödəyicisi kimi (ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) vergi tutulan əməliyyatlarının həcmi 200.000 manat və ondan az olduqda, habelə rüb ərzində elektron qaimə-faktura ilə rəsmiləşdirilən əməliyyatının həcmi ümumi əməliyyatlarının həcminin 30 faizindən çox deyilsə) və ya

**Dövlət büdcəsinə ödənilməli olan vergilər barədə ətraflı məlumatla www.taxes.gov.az internet saytında tanış ola bilərsiniz.**

BAKI — 2024

195

AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az

www.taxes.gov.az

- əldə edilmiş gəlirdən həmin gəlirin əldə edilməsi ilə bağlı çəkilən xərclər çıxıldıqdan sonra qalan məbləğdən 20 faiz dərəcə ilə mənfəət (gəlir) vergisinin ödəyicisi kimi*,
- dövriyyənin həcmindən asılı olaraq ƏDV-nin ödəyicisi kimi yerinə yetirməli,
- vergi orqanına müvafiq bəyannamələr təqdim etməli və
- hesablanmış vergi və sığorta haqlarını vaxtında və tam şəkildə dövlət büdcəsinə və aidiyyəti fondlara ödəməlidir.

* Müvafiq il üzrə orta aylıq muzdlu işçi sayı 3 nəfərdən az və məcburi dövlət sosial sığorta haqları üzrə borcu olmayan, habelə əmtəəsiz əməliyyatlar aparmayan mikro sahibkarlıq subyekti hesab edilən vergi ödəyiciləri sahibkarlıq fəaliyyətindən əldə etdikləri gəlirdən həmin gəlirin əldə edilməsi ilə bağlı çəkilən xərcləri çıxmaqla qalan fərqdən 75 faiz vergi güzəşti nəzərə alınmaqla mənfəət (gəlir) vergisini hesablayaraq büdcəyə ödəyirlər.

**Nə dəyişdi?**

01.01.2024-cü il tarixədək qüvvədə olan qanunvericiliyə əsasən, yükdaşıma fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri sadələşdirilmiş vergi və sığorta haqları üzrə öhdəliklərini əvvəlcədən tam məbləğdə aidiyyəti üzrə ödədikdən sonra hər bir avtomobil üçün “Fərqlənmə nişanı” almaqla yerinə yetirirdi və bu fəaliyyət növü üzrə vergi orqanına bəyannamə təqdim etmirdilər.

Dəyişikliklə qeyd edilən fəaliyyətlə məşğul olan vergi ödəyiciləri vergi və sığorta haqları üzrə öhdəliklərini tətbiq etdikləri vergitutma sisteminə uyğun olaraq bəyan etməklə ümumi qaydada yerinə yetirəcəklər.

❗ Dövlət büdcəsinə ödənilməli olan sadələşdirilmiş, mənfəət (gəlir) vergisi və ƏDV ilə bağlı ətraflı məlumatla “Sadələşdirilmiş vergi”, “Mənfəət vergisi”, “Sahibkarlıq və qeyri-sahibkarlıq fəaliyyəti ilə əlaqədar fiziki şəxslərin gəlir vergisi” və “Əlavə dəyər vergisi (ƏDV)” adlı bukletlərdən tanış ola bilərsiniz.